**A Z Ə R B A Y C A N   R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

---

**№ 27** **10 fevral 2016-cı il**

**Binəqədi rayonunun sosial-iqtisadi, mədəni inkişafında və ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup şəxsin təltif edilməsi haqqında**

Azərbaycan Respublikasının regionlarının, o cümlədən Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları"nın Respublika ərazisində, xüsusilə də Bakı şəhəri və ətraf qəsəbələrində icrası ilə əlaqədar aparılan abadlıq-quruculuq işləri Binəqədi rayonu ərazisində də sürətlə davam etdirilir. Binəqədi rayonu öz növbəsində ötən il ölkədə aparılan sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafa öz töhfəsini vermişdir. Birinci Avropa Oyunlarına hazırlıqla əlaqədar davamlı olaraq mərhələli şəkildə "Təmiz Binəqədi" layihəsi çərçivəsində rayonun bir çox yerlərində - küçə və prospektlərdə, mikrorayon və qəsəbələrdə yenidənqurma və abadlıq işləri intensiv və mütəşəkkil formada həyata keçirilmiş, geniş təbliğat və təşviqat işləri aparılmış, bu işlərə rayon ictimaiyyəti və geniş əhali kütləsi cəlb edilmişdir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 saylı Fərmanı ilə təsdiq edilmiş "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 4.1.24-cü bəndini rəhbər tutaraq

**Qərara alıram:**

**1.** Binəqədi rayonunun sosial-iqtisadi, mədəni inkişafında və ictimai-siyasi həyatında fəal iştirakına görə aşağıda adları çəkilən şəxslər "Fəxri Fərman"la təltif olunsun:

- Akif Rəfiyev – Rayon Ağsaqqallar Şurasının sədri

- Nemət İbrahimov – Binəqədi Rayon Sukanal İdarəsinin baş mühəndisi

- Anar Şıxəliyev – Binəqədi Rayon Polis İdarəsinin 5-ci bölməsinin rəisi

- Şamil Heydərov – Altis Şirkətlər Qrupunun rəhbəri

- Səkinə Babayeva – Bakı Tekstil Fabrikinin təsisçi rəhbəri
- İlqar Zeynalov – Binəqədi rayon Baytarlıq sahəsinin müdiri
- Mahəddin Rüstəmov – Əfqanıstan Müharibəsi Veteranları Təşkilatının Binəqədi Rayon Şöbəsinin sədri
- Elnur Məmmədov – RİH başçısı Aparatının İctamai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi
- Elvin Orucov – Binəqədi rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi

**2.** Sərəncamın icrasına nəzarət Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılova həvalə edilsin.

**Xaləddin İsgəndərov**